BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ VƏ MULTİKULTURALİZM MƏRKƏZİ

TƏHLİL

# Suriyada kürd məsələsi: Əş-Şəra hakimiyyəti dövründə hüquqi tanınma və siyasi-hərbi inteqrasiya


Lalə Xəlilzadə

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az


SENTYABR 2026

## Suriyada kürd məsələsi: Əş-Şəra hakimiyyəti dövründə hüquqi tanınma və siyasi-hərbi inteqrasiya

- **Əhməd Əş-Şəra hakimiyyəti dövründə kürd məsələsinə yanaşma hüquqi və mədəni hüquqların tanınması ilə SDQ-nin dövlət strukturlarına inteqrasiyasını paralel şəkildə əhatə etdi;**
- **16 yanvar 2026-cı il tarixli Prezident Fərmanı ilə kürd dili milli dil kimi tanındı, vətəndaşlıq məsələsinin həlli, kürdlərin mədəni hüquqlarının təmin edilməsi və Novruzun milli bayram kimi tanınması nəzərdə tutuldu;**
- **2025-ci ilin martında başlayan SDQ-nin dövlət strukturlarına inteqrasiyası 2026-cı ilin avqustunda onun müstəqil hərbi struktur kimi fəaliyyətinə son qoyulması ilə yekun mərhələyə keçdi;**
- **Məzlum Abdinin avqustun 27-də prezidentin müşaviri təyin edilməsi kürd siyasi-hərbi rəhbərliyinin yeni dövlət strukturu daxilində siyasi inteqrasiyasının göstəricisi oldu;**
- **ABŞ-nin SDQ ilə əvvəlki hərbi tərəfdaşlıq modelindən onun yeni Suriya dövlətinə inteqrasiyasını dəstəkləyən mövqeyə keçməsi prosesə təsir edən əsas xarici amillərdən biri oldu;**
- **Kürd dilinin 2026–2027-ci tədris ilindən dövlət təhsil sisteminə daxil edilməsi hüquqi tanınmanın təhsil sahəsində praktiki tətbiqinə başlanıldığını göstərdi;**
- **Bununla belə, kürdlərin hüquqlarının praktik təminatı, vətəndaşlıq məsələsinin tam həlli və keçmiş SDQ üzvlərinin dövlət strukturlarında statusu qarşıdakı dövr üçün əsas açıq məsələlər olaraq qalır.**

2024-cü ilin dekabrında Bəşər Əsəd rejiminin süqutundan sonra Suriyada siyasi, hüquqi və mədəni sahələrdə bir sıra mühüm dəyişikliklərin baş verdiyi müşahidə edilir. Bu dəyişikliklər sırasında suriyalı kürdlərin hüquqları və ölkənin şimal-şərqində formalaşmış kürd siyasi-hərbi strukturlarının gələcəyi məsələsi xüsusi yer tutur.

Belə ki, **2026-cı ilin yanvar və avqust aylarında** Prezident Əhməd Əş-Şəra tərəfindən kürdlərlə bağlı mühüm qərarların qəbul edilməsi, Suriya Demokratik Qüvvələrinin (SDQ) dövlət strukturlarına inteqrasiyası bu məsələnin yeni hakimiyyətin gündəmində əhəmiyyət daşıdığını göstərdi. Atılan addımlar 1962-ci il siyahıyaalmasının nəticələrindən təsirlənmiş kürdlərin vətəndaşlıq məsələsinin həllindən, kürd dilinin milli dil kimi tanınmasından və Novruzun rəsmi tətil və milli bayram kimi qəbul edilməsindən tutmuş SDQ-nin müstəqil hərbi qüvvə kimi fəaliyyətinə son qoyulmasına və onun şəxsi heyətinin dövlətin hərbi və təhlükəsizlik strukturlarına inteqrasiyasına qədər geniş spektri əhatə etdi.

Bu dəyişikliklərin digər mühüm göstəricisi kürd dilinin ölkənin təhsil proqramına daxil edilməsidir. Belə ki, avqustun 26-da Suriya Təhsil Nazirliyi kürd dilinin 2026–2027-ci tədris ilindən etibarən dövlət təhsil sistemində tədris olunacağını açıqladı.[1]

Bu baxımdan Suriyada kürd məsələsinin Əhməd Əş-Şəra hakimiyyətindən əvvəlki dövrlə müqayisəli təhlili mövcud dəyişikliklərin mahiyyətini və istiqamətini daha aydın şəkildə ortaya qoyur.

**Əş-Şəra dövrünə qədər kürd məsələsi**

Suriyada kürd məsələsi uzun illər ölkənin siyasi və ictimai gündəmində həssas mövzulardan biri olub. Xüsusilə 1963-cü ildə BƏƏS Partiyasının hakimiyyətə gəlməsindən sonra kürdlərin dil və kimlik hüquqları ciddi şəkildə məhdudlaşdırılıb. Kürd dilinin məktəblərdə və ictimai həyatda istifadəsinə məhdudiyyətlər qoyulub, kürdlərin mədəni və milli kimliyinin ifadəsi müxtəlif formalarda sıxışdırılıb. 1962-ci ildə Həsəkə vilayətində keçirilən xüsusi siyahıyaalma nəticəsində isə, on minlərlə kürd vətəndaşlıqdan məhrum edilib və bu, sonrakı illərdə vətəndaşlığı olmayan kürdlər probleminin dərinləşməsinə səbəb olub.[2]

2011-ci ildə başlayan Suriya böhranı kürdlər üçün yeni siyasi və hərbi imkanlar yaratmış və ölkənin şimal və şimal-şərqində kürd siyasi qüvvələrinin təsirini əhəmiyyətli dərəcədə artırmışdır. Bu prosesdə 2003-cü ildə yaradılmış Demokratik Birlik Partiyası (PYD) və onun silahlı qanadı olan YPG əsas aktorlardan birinə çevrilmişdir. **PYD siyasi proqramında kürd kimliyinin tanınmasını, kürd dili və mədəniyyətinin qorunmasını, kürdlərin yaşadığı ərazilərdə yerli idarəetmənin genişləndirilməsini və kürd dilində təhsilin təmin olunmasını əsas tələblər sırasında irəli sürürdü.** Partiya Suriya daxilində mərkəzsizləşdirilmiş və "demokratik muxtar idarəçilik" modelinə əsaslanan siyasi quruluşun yaradılmasını müdafiə edirdi.

2012-ci ildən etibarən Suriya rejiminin ölkənin şimalındakı bəzi ərazilərdən çəkilməsi PYD/YPG-nin həmin ərazilərdə nəzarətini genişləndirməsinə şərait yaratmışdı. 2014-cü ildə İŞİD-in Kobanıya hücumu və bundan sonra **ABŞ başda olmaqla Qərb ölkələri**nin YPG-yə verdiyi dəstək bu qüvvələrin hərbi-siyasi çəkisini daha da artırmışdı. 2015-ci ildə isə əsasən YPG-nin iştirakı ilə **"Suriya Demokratik Qüvvələri" (SDQ)** yaradılmışdı. SDQ müxtəlif ərəb və kürd silahlı qruplaşmalarının daxil olduğu ittifaq kimi formalaşsa da, onun əsas hərbi dayağını YPG təşkil edirdi. İŞİD-ə qarşı mübarizə çərçivəsində ona əsas hərbi və siyasi dəstək göstərən ölkə ABŞ idi. [3]

Bununla yanaşı, qeyd etmək lazımdır ki, Suriyadakı kürd siyasi hərəkatı vahid mövqedən çıxış etmirdi və PYD ilə digər kürd siyasi qüvvələri arasında ciddi fikir

---

[1] Kurdish enters Syrian schools for first time with two classes a week, 26.08.2026, Kurdish enters Syrian schools for first time with two classes a week

[2] قمع الحقوق السياسية والثقافية للأكراد في سوريا, 26.11.2009, إنكار الوجود: قمع الحقوق السياسية والثقافية للأكراد في سوريا | HRW

[3] Daily Press Briefing - November 10, 2015, https://2009-2017.state.gov/r/pa/prs/dpb/2015/11/249394.htm?safe=1

ayrılıqları mövcud idi. SDQ-nin nəzarət etdiyi ərazilərin genişlənməsi isə kürd məsələsini təkcə mədəni və hüquqi hüquqlar məsələsi olmaqdan çıxararaq Suriyanın ərazi bütövlüyü, mərkəzi hakimiyyətlə münasibətlər, siyasi idarəçilik modeli və ölkənin gələcək dövlət quruluşu ilə bağlı daha mürəkkəb məsələyə çevirirdi.

Beləliklə, Əş-Şəra hakimiyyətinin qarşısında yalnız kürdlərin hüquqlarının tanınması deyil, həm də illər ərzində formalaşmış hərbi-siyasi strukturların mərkəzi dövlətlə münasibətlərinin necə tənzimlənəcəyi məsələsi dayanırdı.

**Əş-Şəra hakimiyyətinin kürd məsələsinə yanaşması**

Əhməd Əş-Şəra hakimiyyəti dövründə kürd məsələsinə dair siyasət iki əsas istiqamətdə formalaşdı:

1. Şimal və şimal-şərqdə fəaliyyət göstərən kürd siyasi və hərbi strukturlarının mərkəzi dövlət sisteminə inteqrasiyası;
2. Kürdlərin vətəndaş, dil və mədəni hüquqlarının tanınması.

Bu proses 2025-ci ilin martında əldə olunan ilk sazişdən başlayaraq 2026-cı ilin avqustunda SDQ-nin müstəqil hərbi qüvvə kimi ləğvinə qədər bir neçə mərhələdə davam etdi:

**<u>10 mart 2025-ci il tarixli Suriya hökuməti–SDQ sazişi</u>**

- Bütün suriyalıların dini və etnik mənsubiyyətindən asılı olmayaraq siyasi prosesdə və dövlət qurumlarında təmsilçiliyinin təmin edilməsi;
- Kürd icmasının Suriya dövlətinin ayrılmaz hissəsi kimi tanınması, vətəndaşlıq və konstitusion hüquqlarının təmin edilməsi;
- Bütün Suriya ərazisində atəşkəsin elan edilməsi;
- Şimal-şərqi Suriyadakı bütün mülki və hərbi qurumların, o cümlədən sərhəd keçidlərinin, hava limanlarının və neft-qaz yataqlarının dövlət idarəçiliyinə inteqrasiyası;
- Köçkün suriyalıların öz şəhər və kəndlərinə qayıtmasının və dövlət tərəfindən təhlükəsizliyinin təmin edilməsi;
- Əsəd rejiminin qalıqları və ölkənin təhlükəsizliyi və birliyinə təhdidlərə qarşı mübarizədə dövlətə dəstək verilməsi;
- Bölücülük, nifrət nitqi və cəmiyyətin müxtəlif komponentləri arasında qarşıdurma yaratmaq cəhdlərinin rədd edilməsi;
- Sazişin icrasının 2025-ci ilin sonunadək başa çatdırılması.[4]

[4] توقيع اتفاق يقضي باندماج قوات سوريا الديمقراطية ضمن مؤسسات الجمهورية العربية السورية وا, 10.03.2025, توقيع اتفاق يقضي باندماج قوات سوريا الديمقراطية ضمن مؤسسات الجمهورية العربية السورية وا

**16 yanvar 2026-cı il tarixli prezident fərmanı**

- Kürd dilinin milli dil kimi tanınması və kürdlərin əhalinin əhəmiyyətli hissəsini təşkil etdiyi ərazilərdə məktəblərdə tədrisinə icazə verilməsi;
- Kürd vətəndaşlarının öz mədəni irsini, incəsənətini və ana dilini qorumaq və inkişaf etdirmək hüququnun təmin edilməsi;
- 1962-ci ildə Həsəkə vilayətində keçirilmiş siyahıyaalmadan irəli gələn qanun və fövqəladə tədbirlərin ləğv edilməsi;
- Suriya ərazisində yaşayan kürd mənşəli şəxslərə, o cümlədən qeydiyyata alınmamış şəxslərə vətəndaşlıq verilməsi;
- Kürdlərin hüquq və vəzifələr baxımından digər vətəndaşlarla tam bərabərliyinin təmin edilməsi;
- Novruzun hər il martın 21-də bütün ölkə üzrə ödənişli rəsmi tətil və milli bayram kimi tanınması.[5]

**18 yanvar 2026-cı il sazişi**

İki gün sonra, 18 yanvar tarixində SDQ-nin Suriya ordusuna inteqrasiyasını nəzərdə tutan yeni saziş əldə edildi:

- Tam və hərtərəfli atəşkəsin elan edilməsi;
- Rəqqa və Deyr əz-Zur vilayətlərinin dövlətin suverenliyi altına qaytarılması;
- Bütün sərhəd keçidlərinin, neft və qaz yataqlarının dövlət nəzarətinə verilməsi;
- Həsəkə vilayətindəki bütün mülki qurumların Suriya dövlətinin təsisatlarına inteqrasiyası;
- Saxlanılan və İŞİD-ə mənsub olmaqda şübhəli bilinən şəxslərlə bağlı məsələlərin Suriya hökumətinə həvalə edilməsi;
- Sazişin müddəalarının atəşkəsin qüvvəyə mindiyi gündən etibarən mərhələli şəkildə həyata keçirilməsi[6]

**29 yanvar 2026-cı il sazişi**

- Hərtərəfli atəşkəsin təmin edilməsi və hərbi qüvvələrin təmas xəttindən geri çəkilməsi;
- Həsəkə və Qamışlıda Suriya ordusu və Müdafiə Nazirliyinə bağlı qüvvələrin yerləşdirilməməsi, təhlükəsizliyin Suriya təhlükəsizlik qüvvələri tərəfindən SDQ ilə koordinasiyada təmin edilməsi;
- SDQ qüvvələrinin Suriya ordusuna inteqrasiyası və üç SDQ briqadası ilə Kobanı qüvvələrindən ibarət hərbi diviziyanın yaradılması;

---

[5] https://sana.sy/en/politics/2290787/

[6] أخبار سوريا الآن в X: «مصدر خاص لسوريا الآن: توقيع اتفاق بين الحكومة السورية وقسد مؤلف من 14 بندا أبرزها: • وقف شامل لإطلاق النار • عودة محافظتي الرقة ودير الزور لسيادة الدولة بالكامل • تسليم ملف المعتقلين والمشتبه بانتمائهم لتنظيم الدولة للحكومة السورية • دمج كافة المؤسسات المدنية في محافظة ...» / X

- “Özünüidarəetmə”nin mülki qurumlarının Suriya dövlətinin təsisatlarına inteqrasiyası və mövcud mülki işçilərin vəzifələrinin qorunması;
- Kürd icmasının mülki və təhsil hüquqlarının təmin edilməsi.[7]

**İnteqrasiyanın tamamlanması və SDQ-nin ləğvi**

2026-cı ilin avqustunda proses yeni mərhələyə keçdi. Avqustun 21-də M. Abdi SDQ-nin hərbi, təhlükəsizlik və inzibati strukturlarının Suriya dövlət təsisatlarına inteqrasiyasının tamamlandığını açıqladı. O, kürdlərin hüquqlarının Konstitusiyada təsbit ediləcəyini və onların Suriya dövlətinin qanunlarına tabe olacağını vurğuladı. Abdi bildirib: *“BƏƏS rejiminin süqutundan sonra Suriyada yeni vəziyyət yaranıb. Bu, yeni Suriyanın qurulması və milli təsisatların yenidən formalaşdırılması mərhələsidir. Buna görə də biz yeni Suriyaya qoşulmaq qərarına gəldik”.*

Avqustun 25-də isə M. Abdi SDQ-nin müstəqil hərbi qüvvə kimi fəaliyyətinin başa çatdığını və onun ləğv edildiyini rəsmən elan etdi. Bununla SDQ-nin ayrıca hərbi struktur kimi mövcudluğuna son qoyulması və qüvvələrinin dövlətin hərbi strukturlarına inteqrasiyası rəsmiləşdirildi.

Abdi bu qərarı Suriyanın yeni siyasi mərhələyə keçidi ilə əlaqələndirib və SDQ-nin ayrıca hərbi struktur kimi fəaliyyətinə son qoyulmasını sülh, sabitlik və yenidənqurma mərhələsinin başlanğıcı kimi təqdim edib. Açıqlama Əhməd Əş-Şəra ilə Məzlum Abdi arasında prezident sarayında keçirilən görüşdən sonra verilib. Görüşdə “özünüidarəetmə” administrasiyasının rəsmisi İlham Əhməd, həmçinin hərbi rəhbər və müdafiə nazirinin şərq bölgəsi üzrə müavini Siban Həmo da iştirak edib.

Həsəkə qubernatorunun müavini Əhməd Əl-Hilali bildirib ki, prezident komandası və inteqrasiya prosesinin müxtəlif mərhələlərində yaradılmış komitələr bu nəticənin əldə olunması üçün ciddi səylər göstərib. Onun sözlərinə görə, proses Prezident Əş-Şəranın birbaşa nəzarəti altında həyata keçirilib.

Əl-Hilali, avqust ayında verdiyi açıqlamada SDQ-nin minlərlə üzvünün artıq bir neçə aydır Müdafiə Nazirliyinin tabeliyində olan briqadaların tərkibinə daxil edildiyini bildirib. Bu məlumat SDQ-nin rəsmi olaraq ləğv edilməsindən əvvəl onun hərbi strukturunun dövlət ordusuna faktiki inteqrasiyasına başlanıldığını göstərir. Onun sözlərinə görə, Həsəkə vilayətinin resursları artıq Suriya dövlətinin sərəncamına keçib və onların satışından əldə olunan gəlirlərin dövlət xəzinəsinə yönəldilməsi nəzərdə tutulur.[8]

---

[7] Five key stages mark Syria’s 17-month SDF integration process, 29.01.2026, Five key stages mark Syria’s 17-month SDF integration process

[8] أخبار - سوريا الآن в X: «نائب محافظ الحسكة أحمد الهلالي للإخبارية السورية: موارد المحافظة أصبحت بنسبة 100% تحت تصرف الدولة السورية وعائداتها تعود إلى الخزينة العامة #عاجل» / X

**Avqustun 25-də Məzlum Abdi Dəməşqdəki Xalq Sarayından televiziya ilə yayımlanan çıxışında Suriya Demokratik Qüvvələrinin (SDQ) müstəqil hərbi qüvvə kimi fəaliyyətinə son qoyulduğunu və onun qüvvələrinin Suriya ordusuna inteqrasiyasının tamamlandığını elan etdi. Abdi bildirdi: *"Bu gün Suriya Demokratik Qüvvələrinin missiyasının başa çatdığını elan edirik və tam məsuliyyətlə onun müstəqil hərbi qüvvə kimi buraxıldığını bəyan edirik."*[9]**

Onun sözlərinə görə, bu açıqlama Prezident Əhməd Əş-Şəra ilə əldə olunan razılaşma və SDQ qüvvələrinin Suriya ordusuna inteqrasiyasının tamamlanmasından sonra verilib. Bununla SDQ-nin müstəqil hərbi struktur kimi fəaliyyətinə rəsmən son qoyulub.

**İki gün sonra, avqustun 27-də Məzlum Abdi Prezident Əhməd Əş-Şəra tərəfindən prezident müşaviri təyin edildi. Bu təyinat prosesin yalnız hərbi deyil, siyasi inteqrasiya istiqamətində də davam etdiyini göstərən mühüm addım kimi qiymətləndirilə bilər. Əvvəllər dövlət hakimiyyətindən kənarda ayrıca hərbi-siyasi strukturun rəhbəri kimi çıxış edən Abdi artıq mərkəzi dövlət strukturu daxilində prezidentə məsləhət verən vəzifəli şəxs kimi fəaliyyət göstərəcək.[10]**

### Kürd dilinin təhsil sisteminə daxil edilməsi

Əş-Şəra hakimiyyətinin kürd məsələsinə yanaşmasında digər mühüm addım kürd dilinin dövlət təhsil sisteminə daxil edilməsi oldu.

Suriya Təhsil Nazirliyi cari ilin 26 yanvar tarixində bununla bağlı icra təlimatlarını yayımlamış və Milli Kurikulumun İnkişafı Mərkəzinə bütün təhsil pillələri üçün kürd dili üzrə dərslik və tədris proqramları hazırlamağı tapşıraraq, onların hazırlanması, təsdiqlənməsi və çapı üçün altı aylıq müddət müəyyən etmişdi. İlkin plana əsasən, kürd dili bütün siniflərdə həftədə iki dərs olmaqla seçmə fənn kimi tədris edilməli, bu fənn üzrə qiymətlər ümumi qiymət cəminə daxil edilməli, lakin həmin qiymət şagirdin növbəti sinfə keçib-keçməməsinə təsir göstərməməli idi.

Avqustun 27-də nazirlik təlimatlara dəyişiklik edərək kürd dilinin ərəb və ingilis dilləri ilə yanaşı həftədə üç dərs tədris olunacağını açıqladı. Bundan əlavə, kürd dilində mədəni və təhsil fəaliyyətləri üçün həftədə bir dərs nəzərdə tutulub. İlk mərhələdə şagirdlərə tarix, coğrafiya və fəlsəfə fənlərini ərəb və ya kürd dilində öyrənmək imkanı da verilir.

**Qeyd edək ki, kürd dilinin tədrisi bütün Suriya məktəblərinə şamil edilmir.** Qərar kürdlərin əhalinin əhəmiyyətli hissəsini təşkil etdiyi ərazilərdəki dövlət və özəl məktəblərinə və bütün təhsil pillələrinə tətbiq olunur. Hüquq müdafiə təşkilatlarının

---

[9] Kurdish-led SDF announces dissolution after merging with Syria's military, 25.08.2026, https://www.aljazeera.com/news/2026/8/25/kurdish-led-forces-in-syria-dissolve-after-merging-with-the-army

[10] الرئيس الشرع يصدر مرسوماً بتعيين مظلوم عبدي مستشاراً لدى رئاسة الجمهورية, 27.08.2026, الرئيس الشرع يصدر مرسوماً بتعيين مظلوم عبدي مستشاراً لدى رئاسة الجمهورية

məlumatlarına görə, kürdlərin Suriya əhalisinin təxminən **10 faizini** təşkil etdiyini nəzərə alsaq, o zaman bu əhəmiyyətli hissə meyarının praktiki olaraq necə müəyyənləşdiriləcəyi məsələsi gündəmə gəlir.

Digər tərəfdən, kürd dilinin dövlət təhsil sisteminə daxil edilməsi Suriyada bu dilin tədrisinin ilk dəfə tətbiq olunması demək deyil. 2011-ci ildən sonra Suriyanın şimal və şərqindəki kürd özünüidarə administrasiyası özünəməxsus təhsil sistemi formalaşdırıb və kürd dilini təhsil prosesinə daxil edib. Bəzi ərazilərdə bununla yanaşı ərəb və süryani dillərindən də istifadə olunub. Lakin bu sistem tədris proqramları, idarəetmə və tanınma baxımından Suriya hökumətinin dövlət təhsil sistemindən ayrı fəaliyyət göstərib.[11]

## Nəticə

Ümumilikdə, Əhməd Əş-Şəra hakimiyyəti dövründə Suriyada kürd məsələsinə yanaşma iki paralel istiqamətdə inkişaf edib. Bir tərəfdən SDQ və onun nəzarətində olmuş mülki və hərbi strukturların vahid dövlət sisteminə inteqrasiyası, digər tərəfdən kürdlərin dil, vətəndaşlıq və mədəni hüquqlarının tanınması və genişləndirilməsi. Bu baxımdan yeni hakimiyyətin siyasəti əvvəlki dövrlə müqayisədə kürd məsələsinin yalnız təhlükəsizlik və ərazi nəzarəti çərçivəsində deyil, hüquqi və mədəni hüquqlar müstəvisində də tənzimlənməsinə yönəlməsi ilə fərqlənir.

10 mart 2025-ci il sazişindən başlayaraq imzalanan prezident fərmanı və 2026-cı ilin yanvarında əldə olunan inteqrasiya razılaşmaları bu siyasətin mərhələli şəkildə həyata keçirildiyini göstərir. Avqustda SDQ-nin müstəqil hərbi struktur kimi fəaliyyətinə son qoyulması və M. Abdinin prezident müşaviri təyin edilməsi isə prosesin hərbi inteqrasiyadan siyasi inteqrasiyaya doğru genişləndiyini nümayiş etdirir.

Bu prosesdə ABŞ-nin mövqeyi də mühüm rol oynayıb. 2025-ci ilin noyabrında Donald Tramp ilə Ə. Əş-Şəra arasında keçirilən görüşdən sonra SDQ-nin inteqrasiyası Vaşinqtonun əsas prioritetlərindən biri kimi önə çıxıb və bu istiqamətdə danışıqları aparmaq üçün Tom Barrak prosesə cəlb edilib. Barrak sonrakı açıqlamalarında kürdlər üçün əsas imkanın yeni Suriya dövlətinə tam inteqrasiya olduğunu bildirib və ABŞ-nin İŞİD ilə mübarizə çərçivəsində SDQ ilə əvvəlki tərəfdaşlığının əsasını təşkil edən şərtlərin dəyişdiyini vurğulayıb. **Bu şəraitdə SDQ üçün ayrıca muxtar hərbi-siyasi modeli qorumaqdansa, müəyyən təminatlar qarşılığında dövlət strukturlarına inteqrasiya olunmaq daha real və az riskli seçimə çevrilib.**

---

[11] Kurdish enters Syrian schools for first time with two classes a week, 26.08.2026, Kurdish enters Syrian schools for first time with two classes a week

**Bununla belə, baş verən mühüm dəyişiklikləri kürd məsələsinin tam həlli kimi qiymətləndirmək hələ tezdir. Kürdlərin hüquqlarının praktik təminatı, vətəndaşlıq məsələsinin tam həlli, kürd dilinin təhsil sistemində tətbiqi və SDQ-nin keçmiş üzvlərinin dövlət strukturlarındakı statusu qarşıdakı dövrün əsas məsələləri olaraq qalır.**

**Müəllif: Lalə Xəlilzadə, Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin (BMTMM) aparıcı məsləhətçisi**